UOT-811.512.162
Səhifə:5-12
https://doi.org/10.59849/2663-8967.2026.2.5

Sayalı Sadıqova
AMEA, Nəsimi adına Dilçilik İnstitutu
filologiya elmləri doktoru, professor
sayalisadigova@yahoo.com

STANDART TERMİNLƏRİN SİSTEMLƏŞDİRİLMƏSİNDƏ TƏRİFİN VERİLMƏ FORMALARI

XÜLASƏ

Məqalədə standart terminlərin sistemləşdirilməsində tərifin verilmə prinsipləri təhlil olunmuşdur. Qeyd olunduğu kimi standartlaşma terminologiyanın sistemə salınmasına, anlayışların dəqiqləşdirilməsinə, məfhumların düzgün qavranılmasına imkan yaradır. Anlayışın müəyyən sahəyə aid olması və terminoloji sistemdə həmin anlayışın müəyyən əlamətlər əsasında spesifik səciyyə daşıması, eləcə də xüsusi vahidlər sisteminə daxil olması müəyyənləşdirilir. Hər hansı bir anlayışın təyin olunmasında, onların daşıdığı mənalar, eləcə də anlayışları bir-birindən fərqləndirən xüsusiyyətlər təyin olunaraq adlandırma üçün zəruri olan əlamətlər seçilir. Aydınlaşdırılır ki, terminlərə müxtəlif cəhətdən tərifl ərin verilməsi, həmçinin mübahisəli cəhətlərin yaranması anlayışın adlandırılmasında onun əsas mahiyyətinin dəqiq təyin olunmaması ilə bağlıdır. Nominasiya prosesində bu şərtlərin nəzərə alınmaması terminə verilən tərifə də təsir edir. Bu nəzərə alınaraq standartlaşmada terminlərə verilən tərif və onların tipləri müəyyənləşdirilmişdir. Təhlillərdən aydın olur ki, standartlaşmada ən çox təsviri və genetik tipli tərifl ərdən istifadə olunur.

Açar sözlər: *standart, termin, sistem, tərif, definisiya, nominasiya, genetik, standartlaşma.*

Giriş: Standartlaşma terminologiyanın sistemə salınmasına, anlayışların dəqiqləşdirilməsinə, məfhumların düzgün qavranılmasına imkan yaradır. Buna görə də F.P.Sorokletov və akad. L.V.Şerba xüsusi terminologiyanı ümumişlək leksikaya qarşı qoyaraq, terminləri müvafiq məfhumlarla qeyri-mütəxəssisin təsəvvür etdiyi formada izah olunması ilə razılaşmır və göstərir ki, elm sahələrində işlənən hər bir termini başqa terminlərdən fərqləndirən əlamətlər öz əksini tapmalıdır. Terminləri bir-birindən fərqləndirən əlamətlər isə tərifdə öz əksini tapır. Tərifdə terminlər qısa, konkret olaraq verilsə də anlayış elmi cəhətdən dəqiq ifadə edilməlidir. Ona görə də milli dillərin lüğət tərkibi əsasında yaradılan terminlərin tərifində dəqiqliyə xüsusi fikir verilməlidir. Lakin standartlaşmada müxtəlif dillərdə işləklik qazanan beynəlmiləl terminlər üçün xüsusi yeni bir tərif müəyyənləşdirilmir. Çünki bütün dillərdə qrafik cəhətdən eyni olan, eyni mənada işlənən məfhumları ifadə etdiyi üçün onlara verilən tərif də əsas götürülür. Terminlərin sistemə salınmasında daha çox izahlı lüğətlərdə verilən tərifə və izah tiplərinə əsaslanmaq zərurəti yaranır. *"Tərif məntiq elminin anlayışıdır. İnsan təfəkküründə yaranmış hər hansı bir elmi tərif dil vasitəsilə gerçəkləşir. Burada təfəkkür qanunları ilə dil qanunları çarpazlaşır. Məntiqi cəhətdən anlayışı düzgün təhlil etmədən heç bir anlayışa tərif vermək olmaz. Çünki tərifin elmi əsası, məntiqi tərəfi olmalıdır. Hər hansı bir linqvistik kateqoriyaya tərif vermək istədikdə, mütləq onun ümumi və özünəməxsus cəhətlərini seçmək lazımdır. Yəni anlayışın diferensial və inteqral cəhətləri linqvistik tərifin əsasında durmalıdır. Bu da tamamilə məntiq qanunları əsasında mümkün olur"* [2, s.21].

E.Koserius ümumiyyətlə tərifləri 3 yerə ayırır: 1) genetik; 2) təsviri; 3) teoloji. Terminlərin standartlaşmasında isə genetik tip tərifl ərdən istifadə olunur [14,s.56].

Genetik tip tərifdə verilən söz onu törətmiş hərəkətin nəticəsi kimi izah etməyə imkan verir.

Həndəsədə, fizikada, dilçilikdə, riyaziyyatda bu cür tərifl ər anlayışı daha dəqiq ifadə edir. Məsələn, Böhran izotermi böhran temperaturuna bərabər nöqtələrin həndəsi yerinə deyilir. Yaxud da, İşıqsaçan cismin atomlarının buraxdığı işıq kvantları başqa bir maddənin atomları tərəfindən udulduqda, atom həyəcanlanaraq özündən işıq kvantları buraxırsa, həmin şüaların spektri udma spektri adlanır [1, s.20.].

Təsviri tiplə verilən tərifdə isə ifadə olunan əşyanın forması, xüsusiyyətləri təsvir edilməklə yanaşı, onun yerinə yetirdiyi funksiya da təsvir edilir. Məsələn, Kosmik şüalar kainatın dərinliklərindən, ulduzlararası fəzadan Yer səthinə gələn və Yer atmosferində qalıq ionlaşma əmələ gətirən şüalara deyilir. [1, s.76]. Baş optik oxa çəkilmiş perpendikulyarla həmin oxdan keçən müstəviyə kristalın baş kəsiyi deyilir. Baş optik oxa paralel olan oxlara yan optik oxlar deyilir [1, s.78].

Elm sahələrində əşyanın xarakterini, təbiətini vermək üçün teoloji tərifdən istifadə olunur. Məsələn: Neytron və protonlar müasir atom modelinə görə atom nüvəsinin tərkib hissəsidir Bunlara nuklonlar deyilir. [1, s.100] Osilloqraf çox tez dəyişən elektrik kəmiyyətlərinin dəyişmə qanunlarını təyin etmək və bu kəmiyyətlərin vizual müşahidəsini və ya müəyyən şəkildə yayılmasını təmin etmək üçün istifadə edilən cihazdır [1, s.102].

Standartlaşmada genetik və təsviri tipli tərifləri olan terminlərə daha geniş yer verilir. Lakin bir sıra elm sahələrində terminlərin standartlaşmasında bir sıra problemlər öz əksini tapır. Bu problemlərin həlli üçün aşağıdakı məsələlər öz həllini tapmalıdır:

1. Anlayışların əsas əlamətləri təyin olunmalıdır.
2. Tərifi olmayan terminlərə konkret və dəqiq tərif verilməlidir.
3. Tərif vermək mümkün olmayan terminlərin definisiyası verilməlidir.
3. Omonim mənalı terminlərin ifadə etdiyi bütün məna verilməlidir.
4. Paralel, dublet terminlər mötərizə içərisində öz əksini tapmalıdır.

Tərifl ərin verilməsində anlayışın məntiqi cəhətdən təyini edilməsi əsas götürülərək onların daşıdığı məzmun, başlıca əlamətlər, funksional xarakterlər müəyyənləşdirilir. Çünki standartların hazırlanması və təsdiqi prosesində elm sahələrinin normativ sənədlərində istifadə edilən terminlərin ikili şərhi, tərif anlaşılmazlığı aradan qaldırılır və mübahisəli məsələlər tam həllini tapır. Dilçiliyin nəzəri problemi kimi anlayışın mənalarının müəyyən mətn daxilində dəqiqləşdirilməsi də mühüm əhəmiyyət kəsb edir. Çünki anlayışların dildə gerçəkləşdirilməsi üçün onların adlandırılması zərurəti yaranır. Bu baxımdan dildə hər bir anlayışın terminlə ifadə edilməsi üçün onun adlandırma vasitələri mövcuddur. Bu vasitələrin başlıcası terminin təyini üçün onun əlamətlərinin izah edilməsinə, müəyyənləşdirilməsinə zəruri tələbat yaranır. Buna görə də anlayışın formalaşma və definisiya qazanma prosesində terminin mətn daxilində işlənmə zamanı daşıdığı məna və onun terminlə əlaqəsi məsələsi müxtəlif cəhətdən izah edilir. *Yəni "Formalaşma və definisiya qazanma prosesində termin hələ kontekstdən asılı olur. Yəni adi sözün, söz birləşməsinin mənasının xüsusiləşərək hər hansı bir sahəyə xüsusi təyinat almasında, yəni termin kimi formalaşmasında kontekst əvvəlcə böyük rol oynayır. Ancaq termin definisiyaya malik olduqdan, yəni söz və söz birləşməsi xüsusi təyinat aldıqdan — terminləşdikdən sonra bu cəhət aradan götürülür və bundan sonra termin mətn daxilindəki asılılıqdan azad olur, sistem müstəqilliyi qazanır"* [10, s.148].

Göründüyü kimi, elm sahələrində terminlərin standartlaşdırılması üçün anlayışın mahiyyəti təyin edilir və sonra verilən ad təhlil süzgəcindən keçirilir. Anlayışın müəyyən sahəyə aid olması və terminoloji sistemdə həmin anlayışın müəyyən əlamətlər əsasında spesifik səciyyə daşıması və xüsusi vahidlər sisteminə daxil olması kontekst vasitəsi ilə təyin edilir. Hər hansı bir anlayışın təyin olunmasında, onların daşıdığı mənalar, eləcə də anlayışları bir-birindən fərqlənən xüsusiyyətlər kontekstlə təyin olunarkən adlandırma üçün zəruri olan əlamətlər də müəyyənləşdirilir. Standartlaşmada nəzərə alınmalıdır ki, terminlərə müxtəlif cəhətdən tərifl ərin verilməsi, həmçinin mübahisəli cəhətlərin yaranması anlayışın adlandırılmasında onun əsas mahiyyətini dəqiq təyin olunmaması ilə bağlıdır. Nominasiya prosesində bu şərtlərin nəzərə alınmaması terminə verilən ada təsir edir, həm də terminin müxtəlif adlarla adlanmasına səbəb olur. Eyni zamanda hər hansı bir leksik vahidin termin olması üçün birinci şərt həmin sözün

definitivləşərək müəyyən sahədə müəyyən bir anlayışın ifadə etməsidir. Standartlaşmada da bu şərtlərin ödənilməsi və sözün terminə çevrilməsi definitiv məzmunlu kontekst vasitəsi ilə aydınlaşdırılır. Sözün definitivləşərək müəyyən bir konkret elm sahəsinə aid anlayışı ifadə etməsi onun terminləşməsinə səbəb olur. Çünki məişətdə, ictimai həyatda işlənən hər bir söz termin hesab edilmir, yalnız müxtəlif elm sahələrinin obyektinə, predmetinə uyğun olaraq təyin edilmiş, müəyyənləşdirilmiş anlayışları dəqiq ifadə edən sözlər terminləşir.

Anlayışı dəqiq ifadə edən tərifl ər mətnlər vasitəsi ilə, yəni müəyyən elm sahəsinə məxsus terminlərin başlıca xüsusiyyətləri işləndiyi mətn əsasında aparılır. Mətnlərdə ayrı-ayrı terminlərin definitiv şərhi verilməklə yanaşı, tərifin verilməsi üçün əsas xüsusiyyətlər də müəyyənləşdirilir. Məsələn, "aqlütinativ dillər" termini dedikdə, sözün aqlütinasiya yolu ilə düzələn dillər nəzərdə tutulur. Sözün kökünə şəkilçi qoşularaq yeni sözlər yaradılır. Türk dilləri və fin-uqor dilləri aqlütinativ dillərdən hesab olunur. Aqlütinativ termini latın mənşəli olub bitişdirmək, yapışdırmaq mənası bildirir. Aqlütinativ dillər terminə paralel olaraq iltisaqi dillər termini də işlənir. Aqlütinativ (iltisaqi) dillər müəyyənləşdirilən zaman onlara məxsus əsas əlamətlər təyin edilir. Standartlaşmada da standart sözdəyişdirici şəkilçilərin sabit söz kökünə qoşulması və sözün müstəqil kök və şəkilçilərə ayrılması əlamətləri əsas götürülür. Bununla yanaşı aqlütinativ (iltisaqi) dillərin morfoloji quruluşu üçün önlüklərin xarakterik olmaması, vurğunun bir qayda olaraq sonuncu hecaya düşməsi, kökdən sonra gələn şəkilçilərin köməyi ilə yeni mənalı sözün yaranması, sözdəyişdirici şəkilçi artırıldıqda isə sözün mənasında deyil, formasında dəyişiklik əmələ gəlməsi, sözün tərkib hissələrinə asanlıqla bölünməsi əlamətləri xarakterik xüsusiyyət hesab olunur [8, s.34]. Mətn daxilində onların ayrı-ayrı definisiyası tam şəkildə verilir, lakin konkret tərif verilmir.

Feil termininin əsas xüsusiyyəti əşyanın hərəkətini, hal-vəziyyətini bildirir və zəngin kateqoriyalar sisteminə malikdir. Başqa nitq hissələri ilə müqayisədə özünəməxsus kateqoriyaları var, şəxsli və şəxssiz formalarda ünsiyyət xidmət edir, təsirli və təsirsiz olur. Növ şəkilçiləri qəbul edir, subyektlə obyekt arasındakı əlaqəni müəyyənləşdirir, zamana, şəkil əlamətlərinə və şəxsə görə dəyişir. Hərəkətin adını bildirmək üçün məsdər şəkilçisi qəbul edərək, feil sifət şəkilçiləri ilə atributivlik, feili bağlama şəkilçiləri ilə adverbiallıq qazanır. Zəngin sözdüzəldicilik imkanlarına malikdir. Bu əlamətlər feilin əsas xüsusiyyətlərini təyin etməyə imkan verir. Əsas xüsusiyyəti nəzərə alınaraq felə konkret olaraq belə tərif verilmişdir. "Ümumi qrammatik mənasına görə əşyanın hərəkətini bildirən əsas nitq hissəsinə feil deyilir." Birinci misalda terminin definitiv izahı, ikinci misalda isə tərifi verilmişdir. Verilən təhlillər dilçiliklə bağlı anlayışları təyin etməklə yanaşı onların adlandırılmasında mühüm rol oynayır. Tərifl ərin verilməsində terminin əsas xüsusiyyətləri, yəni müəyyən bir anlayış ifadə etməsi, anlayış bildirməsi nəzərə alınır. Çünki terminin mənası, əsas əlamətləri onun tərifində öz əksini tapır. Burada da anlayış düzgün təyin edilərək ona tərif verilmişdir. Standartlaşmada da terminə verilən tərif əsas götürülərək standarta daxil edilir.

Çox hallarda isə terminin tərifi əvəzinə onun definitiv izahı verilir. Birinci misalda terminin definitiv izahı, ikinci misalda isə tərifi verilmişdir. Verilən təhlillər elm sahələri ilə bağlı anlayışları təyin etməklə yanaşı onların adlandırılmasında mühüm rol oynayır. Standartlaşmada terminlərin nominativ funksiyası ilə yanaşı definitiv funksiyası əsas hesab edilir. T.R.Kiyakın yazır: *definitiv kontekstdə xeyli sayda termin iştirak edə bilər və həmin terminoloji vahidlərdən təkcə biri təyinatını ala, yəni definitiv müəyyənliyini tapa bilər. Çoxlu sayda olan terminlər də yeni definitiv kontekst tələbinə müvafiq olmalıdır. Həmin müvafiqlik bu və ya digər leksik vahidin terminə çevrilməsini təyin etmək ardıcıllığına şərait yaradır və sistematik definitiv kontekstdən istifadə edilməsinin lazım olduğunu şərtləndirir* [11, s.69].

Standartlaşmada müxtəlif elm sahələrində fərqli mənalar daşıyan terminlərin təyin edilməsində kontekst daxilində aparılan təhlillər onların əsas xüsusiyyətlərini müəyyənləşdirməyə imkan verir. Məsələn, açar söz – informatika sahəsində verilən məqalənin, yaxud da mətnin əsas məğzini özündə əks etdirən söz. Yaxud da verilənlər bazasının idarəolunması sistemlərində yazı, yaxud sənədlərin internetdə axtarış üçün istifadə olunan söz. 2. Bununla yanaşı proqramlaşdırma dillərində dilin öz ehtiyacları üçün qabaqcadan müəyyən olunmuş hərəkəti, funksiyanı, yaxud

əməli tanıdan söz. 3. *İnformatikada* sənədlərin indeksləşməsi üçün sənədin başlığında onun məzmunu haqqında daha çox informasiya daşıyan söz. [9, s.14] Depozit – 1. *İqt.* Banklara və əmanət kassalarına qoyulan əmanətlər. 2. *İqt.* Müştərilərin əmanətlərinin yerləşdirdiyi banka müəyyən tələblərinin mövcudluğunu təsdiq edən bank kitablarında qeydlər. 3. *İqt.* Kredit idarələrinə saxlanmaq üçün verilən qiymətli kağızlar (səhmlər və istiqrazlar). 4. *İqt.* Vergilərin, yaxud da gömrük rüsumlarının ödənilməsi üçün gömrük idarələrinə verilən maddi dəyərlər (adətən, pul və ya qiymətli kağızlar). 5. *İqt.* Hesablama Palatasına müqavilə ilə qeydiyyatdan keçən zaman müştərilər tərəfindən birjanın üzvü tərəfindən brokerə ödənilməli olan sabit məbləğin və ya fyuçers müqaviləsinin ümumi dəyərinin şərtlənmiş bir hissəsi olan pul məbləği [9, s.52].

Standartlaşmada terminin daşıdığı mənalar mətn daxilində verilir. Terminlərə verilən tərifdə anlayışın definitiv funksiyaları göstərilir. Yazılır ki, "*terminin təyini üçün mövcud olan xüsusiyyətləri kontekstin daxilində axtarmaq lazımdır. Həmin kontekst təbiəti etibarı ilə bütöv təsir bağışlamalı, definisiyanı tam əks etdirməlidir"* [12, s.27].

Terminlərin xarakterik xüsusiyyətlərindən biri də terminin kontekstdən asılı olmamasıdır. Lakin termin definitivlik qazanana qədər kontekstdən asılı olur. Termin definisiyaya malik olduqdan, yəni söz və söz birləşməsi terminləşdikdən, hər hansı bir sahədə xüsusi funksiya daşıdıqdan sonra aradan götürülür. Formalaşma və definitivləşmə prosesində isə terminin daşıdığı məna kontekst vasitəsi ilə müəyyənləşdirilir. Yəni, termin yarananda sonra, yəni dəqiqləşmiş vahid kimi anlayışın, hadisənin, predmetin adlandırdıqdan sonra kontekst onu formalaşdırmır və yalnız termin müəyyən kontekst daxilində işlənir. Standartlaşma da termin definitivləşdikdən sonra aparılır. Hər bir terminin hansı elm sahəsinə aid olması və daşıdığı informasiya anlayışı tam qavramağa imkan verir. Deməli, anlayış təyin edilərək əsas əlamətləri əsasında ona ad verilir. Adların verilməsinin ilk mərhələsində hər hansı bir elm sahəsi ilə bağlı anlayışın zəruri və kafi əlamətləri təyin edilir və ad verilir. Terminin əsas əlamətləri isə tərifdə və ona verilən şərhdə tam şəkildə öz əksini tapmalıdır. Əks halda terminin bir necə tərifi ola bilir.

D.S.Lottenin qeyd etdiyi kimi anlayışa verdiyi tərifdə əsas xüsusiyyət minimal elementin terminoloji məna kəsb etməsidir [16, s.284].

Anlayışın adlandırılmasında terminlərin tərkibinə daxil olan komponentlərdə əsas əlamət xüsusi diqqətə çatdırılır. Məsələn, " paralel qoşulma", "ardıcıl qoşulma", "üçbucaq qoşulma" birləşməsində "qoşulma" anlayışın əsas əlamətidir. Çünki texnikada naqillər ötürücü funksiyasını yerinə yetirmək üçün müxtəlif formada bir-birinə qoşularaq cihazları elektriklə təmin edir, lakin "qoşulma" terminini paralel, ardıcıl, üçbucaq terminləri təyin edir və birləşmə bütövlükdə anlayışı təyin edir. Bununla da termin müəyyən məzmuna malik olmaqla yanaşı kontekstdən asılı olmadan müəyyən elm sahəsində definitivləşir. D.S.Lotte yazır: *"adi söz və söz birləşməsindən fərqli olaraq, termin məhdud və təsbit edilmiş məzmuna malik olmalıdır. Bu məzmun kontekstdən asılı olmayaraq, terminə məxsus olmalıdır, halbuki adi sözün mənası yalnız müəyyən kontekstdə, başqa sözlərlə birləşmədə müəyyənləşir"* [16, s.13].

Terminologiyanın nizama salınmasında, standartlaşma prosesində terminin təyin edilməsi ən aktual problemlərdəndir. Terminlərin təyinolunmasında əsas əlamətlərin müəyyənləşdirilməsi mürəkkəb olduğu qədər, həm də mübahisəlidir. Terminologiyanın bir sıra problemləri nəzəri aspektdə A.Reformatski, D.Lotte V.Danilenko, T.Kandelaki, A.Superanskaya, Ş. Kurbanbəli, M. Qasımov və başqaları tədqiq etmişlər. Bu tədqiqatlarda terminlə ümumişlək sözlər arasındakı diferensiasiya prosesinə daha çox əsaslanılmışdır. Lakin terminlərin standartlaşması prosesində terminin definisiyası, sözlərin terminləşməsi, terminoloji anlayışları təyin etmək yolları müəyyənləşdirilməmişdir. Terminlərin tərif qazanması üçün onun əsas əlamətlərinin təyin edilməsi, yaxud da izah edilməsi müəyyən sahə daxilində aparılır. Tərifin verilməsində də bu əlamətlər əsas götürülür. Onu da nəzərə almaq lazımdır ki, tərifin həcmi izahın həcmi ilə müqayisədə kiçik olduğu üçün ən zəruri əlamətlər əsas götürülür. Tərif o zaman mümkün olur ki, termin definisiyaya malik olsun, yəni söz və söz birləşməsi xüsusi təyinat alaraq terminləşdikdən sonra xüsusi funksiya yerinə yetirsin. Formalaşma və definisiya qazanma prosesində isə termin hələ kontekstdən asılı olursa izah və şərhə daha çox ehtiyac yaranır. Adi sözün və söz birləşməsinin müəyyən mənada işlənmə tezliyinin çoxalması, hər hansı bir elm sahəsində

semantik cəhətdən inkişaf etməsi, onun ifadə etdiyi mənanın xüsusiləşməsinə, dəqiqləşməsinə və definitiv təyinlərin yaranmasına səbəb olur. Deməli, adi sözün, söz birləşməsinin mənasının xüsusiləşərək hər hansı bir sahəyə xüsusi bir təyinat almasında, yəni termin kimi formalaşmasında kontekst əvvəlcə böyük rol oynayır. Sonra termin mətn daxilindəki asılılıqdan azad olur və sistem müstəqilliyi, müstəqil xüsusi terminoloji məna fenomeni qazanır. Standartlaşma terminoloji vahidin müəyyən sahə terminologiyasında xüsusiləşməsindən, təyinat aldıqdan sonra aparılır. Təyinat isə terminin definisiyası izahı və sahə anlayışları əsasında aparılır. Verilən definisiyada sahə anlayışı bir tərəfli təyin edilmir, həm də anlayışlar arasında olan sərhədləri də müəyyənləşdirir. Hər bir terminin definisiyası adlandırdığı predmetin səciyyəvi əlamətlərinə əsaslanaraq təyin edilir. Əgər termin səciyyəvi əlamətlərə görə təyin edilmirsə, anlayışların fərqləndirilməsində onun ifadə etdiyi məna nisbi xarakterlidirsə anlayışın definisiyası da, tərifi də qeyri-müəyyəndir.

Təyinolunma kriteriyası terminin əsas mənası əsasında təyin edilməlidir. Bu isə onu deməyə əsas verir ki, termin yalnız hər hansı bir anlayışı ifadə etmir, həmçinin anlayışın əsas əlamətlərini təyin edir və onun əsas funksiyası əsasında formalaşır. Çünki terminoloji sistemdə hər bir termin nominativ, ya da definitiv funksiyaları yerinə yetirir. Müəyyənləşmiş anlayış adlandırılırsa da o adi işarədir, məntiqi təyinatın vasitəsi olduqda isə elmi termindir. Bu şərhdən aydın olur ki, terminin təyinində onun məntiqi tərəfi əsas götürülür. Məntiqi tərəf dedikdə isə termini təyin edən definitiv əlamətləri, yəni anlayışla termin arasında qarşılıqlı əlaqə yaradan zəruri əlamətlər müəyyənləşdirilir. Nominasiya o zaman dəqiq hesab olunur ki, nəzərdə tutulan anlayışın yaxud da obyektin ən mühüm zəruri əlamətlərinin məcmusu terminin definitiv izahında öz əksini tapsın. Hər bir anlayışı təyin edən əlamətlər içərisindən zəruri və kafi olanları seçilir və terminin ifadə forması olan qabığında öz əksini tapa bilir. Buna görə də anlayışların təyin edilməsi müəyyən şərtlər daxilində aparılır. Əgər definisiyada ümumi və xüsusi əlamətlər öz əksini tapırsa, tərifdə konkret olan zəruri və kafi əlamətlər əsas götürülür. Bu şərtlər nəzərə alınmadıqda terminə müxtəlif tərifl ər verilir. Tərifin çoxluğu isə yolverilməzdir və bu elm sahələrində və tədrisdə anlaşılmazlıq və qarışıqlıq yaradır. Məsələn, dilçilikdə mübtəda, xəbər, tamamlıq, təyin, zərfliklə bağlı tərifl ər müxtəlifdir. Çünki onları təyin edən ən zəruri əlamət əsas götürülsə də kafi əlamətlər nəzərə alınmamışdır. Yazılır ki, "mübtəda cümlənin fikir özülünü (fikir predmetini) təşkil edən, hərəkət və əlaməti xəbər vasitəsilə müəyyənləşən, adlıq hal formasında substantiv söz və birləşmələrlə ifadə olunan, kim? nə? bəzən də hara? suallarından birinə cavab verən baş üzvdür"[8, s.658]. Verilən bu tərifdə mübtədanın əsas əlamətlərinin əksəriyyəti nəzərə alınmışdır. Lakin bəzi hallarda lüğətlərdə terminin tərifi deyil, definisiyası verilir. Məsələn, mübtəda- fikrin predmetini bildirən, qrammatik cəhətdən cümlə üzvlərinin heç birindən asılı olmayan və cüttərkibli cümlənin baş üzvü kimi çıxış edən sintaktik vahid [2, s.173].

Verilən definisiyada da mübtədanı xarakterizə edən zəruri əlamətlər nəzərə alınmışdır. Eləcə də xəbər cümlənin baş üzvü kimi müxtəlif cəhətdən izah edilir. Məsələn, Musa Adilov " xəbər" terminini belə izah edir: "xəbər- cüttərkibli cümlənin baş üzvü; digər baş üzv- mübtədaya tabe olan və mübtədanın əks etdiyi əşyanın aktiv və passiv əlamətini bildirən baş üzv" [2, s.318]. Burada terminin baş üzv olması, mübtədaya tabe olması, əşyanın aktiv və passiv əlamətini bildirməsi, cüttərkibli cümlənin baş üzvü olması əsas əlamətlər kimi xarakterizə edilmişdir. "İzahlı dilçilik terminləri lüğəti"ndə isə yazılır: "xəbər" – cümlənin baş üzvü olub, qrammatik cəhətdən yalnız mübtədadan asılı olub, mübtədanın ifadə etdiyi (cüttərkibli cümlələrdə mübtədanın) hərəkət və əşyanın əlamətini bildirir". Verilən bu konkret əlamətlərlə yanaşı müxtəlif definisiyası da verilir: " Xəbər feilin dəyişən şəkilləri ilə həmçinin adlarla və ad birləşmələri ilə ifadə olunur. Əlamət sözü geniş mənadadır; əlamət dedikdə xəbərin iş, hal, hərəkət, hadisə, hökm bildirməsi, nitq predmeti haqqında xəbər vasitəsilə verilən məlumat ümumiləşdirilir. Xəbərin əsas xüsusiyyətləri: cümlənin baş üzvüdür; cüttərkibli cümlələrdə yalnız mübtədadan asılıdır; uzlaşma yolu ilə mübtədaya tabedir; təktərkibli cümlənin ən müstəqil üzvüdür; zaman, şəxs, modallıq xüsusiyyətlərinə malik olur; ədəbi dil normalarına əsasən cümlənin sonunda işlənir; nitq predmetinin hərəkətini və ya əlamətini (geniş mənada) bildirir (hərəkət – feili, əlamət – ismi xəbərlə ifadə olunur); çox zaman remanın – "yeni"nin ifadəçisidir; şəxsli (təsirlənmiş) feillərlə, adlarla, ismi və feili birləş-

mələrlə ifadə olunur. Cümlədə xəbər kimdir?, nədir?, haradadır?, neçədir?, hansıdır? və s. suallara cavab verir" [8, s.330]. Bu müxtəliflik isə terminin məntiqi cəhətdən təyinində anlayışın müxtəlif əlamətlərinin nəzərə alınmasıdır. Standartlaşma prosesində termini təyin edən bütün əlamətlər nəzərə alınaraq konkret tərif lər verilməlidir.

Standartlaşma prosesində bəzən bir terminin bir neçə elm sahəsində işlənməsi və müxtəlif definisiyalara malik olması da müşahidə olunur. Çünki definisiya prosesində terminin sinonim variantları da müəyyənləşdirilir və meydana çıxan variantların hər biri təhlil edilir. Məsələn, dilçiliklə bağlı terminoloji sistemdə sillabik yazı- heca yazısı, siqnifika-semasiologiya, səsartımı-proteza, səsdüşümü- eliziya, səsin məxrəci, artikulyasiya terminləri paralel şəkildə işlənir. Alınmalarla milli terminlərin işlənməsi paralellik yaradır və terminologiyada anlaşılmazlıq yaradır. Bu anlaşılmazlığın aradan qaldırılması üçün milli terminlərə üstünlük verilməli və standartlaşmada milli terminlər qeydə alınmalı və onların ya definisiyası, ya da tərifi verilməlidir. Eləcə də elə terminlər var ki, eyni məna daşıyır. Məsələn, passiv feil- məchul feil, nominativ cümlə- adlıq cümlə, nisbi tamamlıq-qoşmalı tamamlıq, məna xüsusiləşməsi- məna daralması eyni anlayışları bildirir və bunların bir-biri ilə məna baxımından bir-biri ilə əlaqədar olduğu da göstərilməlidir. Standartlaşmada hər bir terminin nominativ və definitiv funksiyaları nəzərə alınmalıdır. M.Qasımov yazır: *"dil cəhətdən terminin funksiyasını adlandırma funksiyası, nominativ funksiya kimi müəyyənləşdirmək olar. Belə ki, terminlər əşyaları, prosesləri, obyektiv gerçəkliyin hadisələrini və onlar haqqındakı anlayışları adlandırır"* [6, s.9]. Standartlaşmada da terminin əsası təyin olan bu funksiyası ilə yanaşı terminin daxili mahiyyətinin açılmasında mühüm olan definitiv funksiya da önə çəkilir. Çünki terminin təyin olunmasında yalnız nominativ funksiyanın əsas əlamətlərinin müəyyənləşdirilməsi nəzərə alınmır. Ona görə də onun müəyyən elm sahəsində daşıdığı funksiyasının təyin olunmasında terminoloji vahidin definitiv əlamətinə əsaslanaraq, onun termin statusunda olması öz təsdiqini tapmalıdır. Bununla yanaşı həmin termin əsasında yaranan terminlər və onların daşıdığı funksiya nəzərə alınaraq tərif lər verilməlidir. Məsələn, ümumi qrammatik mənasına görə əşyanın hərəkətini bildirən əsas nitq hissəsinə feil deyilir. Burada feilin konkret tərifi verilmişdir. Eləcə də "feili isim" – feillərə müxtəlif sözdüzəldici şəkilçilər qoşmaqla düzələn və ya feillərin substantivləşməsindən əmələ gələn isimdir; feili sifət – əşyanın hərəkətlə bağlı əlamətini bildirən feilin atributiv-adyektiv formasıdır; feili sifət tərkibi – feili sifətə aid olub, əsas tərəfi feili sifətdən ibarət olan, ondan əvvəl gələn sözlərlə feili sifətin birləşməsindən ibarət konstruksiyadır kimi verilmişdir [8, s.223].

Bu terminlərdə "feil" ümumi məzmuna malikdir və anlayışı təyin edir. Digər iki termin isə feili isim, feili sifət, feili bağlama isə predmetə aid olan əlamətləri və onlara aid olan növləri təyin edir. Verilən tərif lər arasında müəyyən fərqlər olsa da anlayışa aid əsas əlamətlər eynidir. Məsələn, feilə tərif veriləndə əşyanın hərəkətini bildirməsi, feili sifətin hərəkətin əlamətini bildirməsi, feili işimin feillərin substantivləşməsindən əmələ gələn isim olması, feili sifət tərkibinin özündən əvvəl gələn sözlərlə feili sifətin birləşməsindən əmələ gəlməsi əlamətləri bütün definisiyalarda və tərif lərdə ya olduğu kimi, ya da əsas əlamət kimi müəyyən dəyişikliklə verilir. Ona görə də terminlərin tərifinin verilməsində bənzəyişlər üstünlük təşkil edir, çünki anlayışın məntiqi təyinində onu xarakterizə edən əsas əlamət mütləq verilməlidir. T.Kandelakinin qeyd etdiyi kimi *"terminin nədənsə fərqləndirilməsi cəhdi onun definisiya xassəsi ilə bilavasitə əlaqəli olub, müəyyən sahə ilə əlaqədardır. Hər hansı bir sahəyə terminin aid olması isə onu təyin etmək kriteriyası kimi həlledici sayıla bilməz. İlkin şərt kimi sözügedən terminin sahəyə aid anlayışı adlandırılması ölçüsü əsas götürülməlidir. Deməli, terminin definitiv təyini üçün anlayış cəhəti, yaxud terminin müəyyən anlayış ifadə etməsi, onun adi funksiyasında hərəkəti əsas hesab edilməlidir"*[13, s.47]. Standartlaşmada isə müxtəlif tərif lərdən termini daha dəqiq ifadə edən tərif qəbul edilməlidir. Bəzən də terminə verilən tərif lərdə anlayışı təyin edən əsas əlamətlər birləşdirilərək kombinə edilə bilər. Birinci tərifdə əksini tapan əlamətlər ikinci tərifdə və ya üçüncüdə öz əksini tapa bilmirsə anlayışı ifadə edən əlamətlər düzgün təyin edilməmişdir və onu dəqiq təyin etməkdən məhrumdur. Ona görə də kombinələşmiş tərif lərdə də termini təyin edən definitiv funksiya dəqiq müəyyənləşdirilməlidir. A.Superanskayanın qeyd etdiyi kimi "*terminin dürüst dərk edilməsi üçün onun definisiyası olmalıdır"* [17, s.14].

Standartlaşmada terminin definisiyası onun hər hansı bir sahəyə aid olduğunu da xarakterizə edir. Lakin terminə verilən definisiyalar da bəzən üst-üstə düşür. Məsələn: deontologiya – əxlaq və mənəviyyat problemləri haqqında təlimi tədqiq edən etika bölməsi; depassivasiya – hər hansı metalın üzərindəki oksid qatının müəyyən təsirlərlə itməsi, pozulması, zədələnməsi və ya aşındırılması; deponent – əmək haqqını vaxtında almayan işçilər və ayrı-ayrı təşkilatların xeyrinə əmək haqqından tutulma həyata keçirilən, bank idarəsinə depozitə daxil edən (aliment və s.) vətəndaşlar yaxud hüquqi şəxslər [9, s.52]. Hər bir terminin definitivləşməsi, müəyyən bir sahəyə daxil olması mütləqdir. Terminologiyanın nizama salınmasında, standartlaşmada bu şərtlər əsas götürülməlidir.

Nəticə: Deməli, terminin standartlaşması üçün onun definisiyasının müəyyənləşdirilməsi ən mühüm şərtdir. Çünki terminləşmə prosesində onun definisiyanın mövcudluğu mütləqdir və bunun da yaranma prosesi müəyyən qanunauyğunluqlarla həyata keçirilir. Bu qanunauyğunluqlar isə yeni yaranan anlayışın hər hansı bir elm sahəsində dəqiq statusunu tapa bilməsi və definitivləşməsi ilə xarakterizə olunur.

Ədəbiyyat siyahısı

1. Abbaszadə A., Z. Qaralov. Məktəblinin fizika lüğəti, Maarif, 1975, səh.20.
2. Azərbaycan dilinin izahlı lüğəti: [4 cilddə] / – Bakı: Elm, – c. 3. – 1983. – 554 s.
3. Babayev A. Dilçiliyə giriş, Bakı, Maarif, – 1992. – 498 s.
4. Əliyev H. Yeni 2001-ci il, yeni əsr və yeni minillik münasibətilə Azərbaycan xalqına müraciət, Azərbaycan, 2000, 30 dekabr.
5. Qarayev A. Müasir Azərbaycan dilində Avropa mənşəli leksik alınmalar, Bakı, ADU nəşri, 1989, 394 s.
6. Qasımov M. Azərbaycan dili terminologiyasının əsasları. Bakı, Maarif, 1977, s.247.
7. Məmmədli, N. Alınma terminlərin leksik və semantik xüsusiyyətləri, Bakı, 1995, s.172.
8. Sayalı Sadıqova, Natavan Hüseynova, Sveta Novruzova, Şəbnəm Həsənli-Qəribova, İzahlı dilçilik terminləri lüğəti, Bakı, Elm, 2019.
9. Sayalı Sadıqova. İzahlı yeni terminlər lüğəti IIIc. Bakı, Elm, 2021.
10. Zeynalova, G. Definitiv terminlərdə forma və məzmun, Terminologiya məsələləri, Bakı, Elm, 2004, s. 146-150.
11. Интернациональные элементы в лексике и терминологии, Харьков: Высшая школа, 1980, 208 с.
12. Исхакова, Х.Ф. Структуры терминологических систем: Тюркские языки, Москва: Наука, 1987, 125 с.
13. Канделаки, Т.Л. Семантика терминов категории процессов, автореферат дис. кандидата филологических наук, Москва, 1970, 26 с.
14. Косериус Э. Синхрония, диахрония и история. Новое в лингвистике, Москва: Иностранная литература -1963, Вып.3.
15. Крысин, Л.П. К определению терминов «заимствование» и заимствованное слова, Развитие лексики русского литературного языка, Москва: Наука, 1965, с. 104-116.
16. Лотте, Д.С. Основы построения научно-технической терминологии, Москва: Изд-во АН СССР, 1961, 158 с.
17. Махмудов, М.А. Разработка системы формального морфологического анализа тюркского словоформы: (на материале Азербайджанского языка), автореферат дис. кандидата филологических наук, Баку, 1982, 26 с.

Sayali Sadigova

Forms of providing definitions in the systematization of standard terms
Abstract

This article analyzes the principles of formulating definitions within the systematization of standard terms. As noted, standardization facilitates the systematization of terminology, the clarification of concepts, and the accurate comprehension of notions. It establishes a concept's relevance to a specific field, its specific characteristics within a terminological system based on distinct attributes, and its inclusion in a system of specialized units. When defining a concept, the meanings it conveys and the features distinguishing it from others are identified, and the attributes essential for its naming are selected. It is clarified that the existence of various definitions for terms—and the emergence of contentious issues—often stems from a failure to precisely define the concept's core essence during the naming process. Failure to consider these factors during the nomination process impacts the resulting definition. In light of this, the study identifies the types of definitions used for terms in standardization. The analysis reveals that descriptive and genetic definitions are the most frequently employed types in this context.

Keywords: *standard, term, system, definition, nomination, genetic, standardization.*

Саялы Садыгова

Способы формулирования определений при систематизации стандартизированных терминов
Аннотация

В статье анализируются принципы формулирования определений в процессе систематизации стандартных терминов. Отмечается, что стандартизация способствует систематизации терминологии, уточнению понятий и точному пониманию их содержания. Она позволяет определить принадлежность понятия к конкретной предметной области, выявить его специфические характеристики в рамках терминологической системы на основе отличительных признаков, а также определить его место в системе специальных единиц. При определении понятия выявляются передаваемые им смыслы и признаки, отличающие его от других понятий, а также отбираются характеристики, существенные для его наименования. Указывается, что существование различных определений для одних и тех же терминов — и возникающие в связи с этим спорные вопросы — зачастую обусловлены отсутствием четкого определения сущности понятия на этапе его наименования. Игнорирование этих факторов в процессе номинации сказывается на качестве итогового определения. В связи с этим в исследовании выделяются типы определений, используемые для терминов в сфере стандартизации. Анализ показывает, что наиболее часто в данном контексте применяются описательные и генетические определения.

Ключевые слова: *стандарт, термин, система, определение, номинация, генетический, стандартизация.*

Çapa tövsiyə edən: ***AMEA, Nəsimi adına Dilçilik İnstitutu, Terminologiya şöbəsi***

Rəyçilər: ***professor Nadir Məmmədli***
professor İkram Qasımov